

# QISA İCMAL

2025

Avropa İnvestisiya Bankı | Qrup

# QISA İCMAL 2025

Avropa İnvestisiya Bankı | Qrup

**Qısa İcmal, 2025**

**© Avropa İnvestisiya Bankı, 2025.**
98-100, boulevard Konrad Adenauer
L-2950 Luxembourg

Bütün hüquqlar qorunur.
Hüquqlar və icazələrin alınması ilə bağlı bütün suallar aşağıdakı e-poçt ünvanına yönləndirilməlidir: publications@eib.org.

AİB-in fəaliyyəti barədə daha ətraflı məlumat üçün veb-saytımızı ziyarət etməyinizi xahiş edirik: www.eib.org. Aşağıdakı e-poçt ünvanı vasitəsilə də əlaqə saxlaya bilərsiniz: info@eib.org. Elektron xəbər bülletenimizi www.eib.org/sign-up səhifəsi vasitəsilə əldə edə bilərsiniz.

© Fotonun müəllif hüququ: EIB, Energy Dome, Matr Foods, Rim Foam, Shutterstock, GettyImages

**Məsuliyyətdən imtina**
Bu tərcümə ilə mətnin əsli arasında hər hansı uyğunsuzluq olduqda, mətnin əsli üstün tutulur.

Avropa İnvestisiya Bankı tərəfindən nəşr olunub.
FSC® kağızında çap edilib.

pdf: QH-01-25-001-AZ-N ISBN 978-92-861-5924-4 doi: 10.2867/7059574

# AVROPA İNVESTİSİYA BANKI HAQQINDA

Dünyanın aparıcı çoxtərəfli institutlarından biri olaraq, Avropa İnvestisiya Bankı ən vacib sahələrdə irəliləyişə təkan verir. 1958-ci ildə təsis edilmiş və Avropa İttifaqının 27 üzv dövlətinə məxsus Bank olaraq, biz maliyyə resurslarımızı və təcrübəmizi əhəmiyyətli dəyişikliklərə yönəldirik – ictimai xidmətləri təkmilləşdirir, biznesləri dəstəkləyir, iş yerləri yaradır və dayanıqlı iqtisadiyyatlar qururuq.

# DAYANIQLI TƏSİR

Biz Avropanın iqlim bankıyıq. Daha “yaşıl” və daha dayanıqlı bir gələcəyə inanırıq. İqlim dəyişikliyi ilə mübarizə üçün innovativ həllərin maliyyələşdirilməsindən tutmuş, bütün ölçülərdə bizneslərin “yaşıl keçid”ini dəstəkləməyə qədər verdiyimiz dəstək əhəmiyyətli dəyişikliklər yaradır. AİB Qrupunun bir hissəsi olan Avropa İnvestisiya Fondu vasitəsilə biz vençur kapitalı təqdim edir, kiçik və orta müəssisələrə innovasiyaların tətbiqi, fəaliyyətin genişləndirilməsi və inkişaf üçün imkanlar yaradırıq.

# QLOBAL OYUNÇU

Altmış ildən artıq müddətdə 1 trilyon avrodan çox investisiya yatırmaqla, biz beynəlxalq kapital bazarlarında etibarlı qüvvəyik və istiqraz satışları vasitəsilə vəsait toplayaraq bütün dünyada müştərilərə rəqabətli maliyyə təklif edirik.

# 2024-Cİ İLDƏ TƏSİRİMİZ

**350 milyard avro**
AİB Qrupu tərəfindən dəstəklənən investisiya

**17.2 milyard avro**
dayanıqlı şəhərlər və regionlar

**50.7 milyard avro**
"yaşıl" maliyyələşdirmə

**63.4 milyard avro**
istiqraz bazarlarında cəlb edilmiş kapital

**16.2 milyard avro**
kiçik və orta bizneslər

**8.7 milyard avro**
sosial infrastruktur

**19.8 milyard avro**
innovasiya, rəqəmsal texnologiyalar və biliklər

**368 000-dən çox**
maliyyə dəstəyindən faydalanan tələbələr

**13.7 milyon**
təmiz içməli su ilə təchiz olunmuş insanlar

## AİB Qrupu tərəfindən maliyyələşdirmə: 88.8 milyard avro, bundan 8.4 milyard avro Aİ-dən kənarda.

**14.7 milyon**
enerji ilə təchiz olunmuş ev təsərrüfatları

**5.9 milyon**
sanitariya şəraiti daha da yaxşılaşdırılmış insanlar

**854 000**
5G abunəçiləri

**305 milyon**
ictimai nəqliyyatla edilmiş əlavə sərnişin səyahətləri

**2 milyon**
daşqından mühafizə edilən insanlar

**20 964 MVt/saat**
bərpa olunan elektrik enerjisi istehsalı gücü

**107 370 km**
quraşdırılmış və ya yenilənmiş elektrik xətləri

**67.5 milyon**
yaxşı bələdiyyə və regional infrastrukturla təmin olunan insanlar

**14.9 milyon**
daha yaxşı səhiyyə xidmətləri ilə təmin olunan insanlar

# PRİORİTETLƏRİMİZ

**Hər il biz iqlim tədbirlərindən rəqəmsallaşmaya, təhlükəsizlik və müdafiədən dayanıqlı yaşayış yeri ilə təminat, kənd təsərrüfatı və təmiz suya qədər müxtəlif sahələr üzrə yüzlərlə yeni layihəni maliyyələşdiririk. Bizim dəstəyimiz Avropanın az inkişaf etmiş bölgələrinə kömək edir, "yaşıl" maliyyələşdirməni sürətləndirir və kapital bazarlarında investisiyanı təşviq edir. Bütün bu fəaliyyətlərin məqsədi dünya üçün daha təhlükəsiz, firavan və dayanıqlı bir gələcək qurmaqdır.**



**“Warehouses de Pauw” şirkətinin günəş panelləri hər il 150 000 nəfər üçün kifayət edəcək həcmdə - 350 giqavat/saata qədər elektrik enerjisi istehsal edəcəkdir.**

1

# İQLİM BANKI

**Avropa İnvestisiya Bankı təmiz enerjiyə keçidin önündə gedir. Biz istixana qazı emissiyalarının azaldılması, qarşısının alınması və ya udulması yolu ilə iqlim dəyişikliyinin təsirlərini azaldan investisiyaları reallaşdırırıq. Biz, həmçinin, icmaların dəyişən iqlim şəraitinə uyğunlaşmasına kömək edən layihələri maliyyələşdiririk.**

**50,7**
**milyard avro**
**“yaşıl” maliyyələşdirmə: 2024-cü ildə**

**1**
**trilyon avro**
**iqlim və ətraf mühit layihələrinə investisiya: bu onillikdə**

## MƏNFƏƏTLİ “YAŞIL KEÇİD”

“Warehouses de Pauw” şirkəti Rumıniya, Belçika və Niderlanddakı anbarlarında günəş panelləri quraşdıraraq damlarını elektrik stansiyalarına çevirir. Bu addım həm artan elektrik xərclərini azaldır, həm də şirkətin müştərilərinə enerji təchiz etməklə əlavə gəlir yaradır. Bu layihəyə ayırdığımız 250 milyon avro məbləğində kredit fərdi müştərilərə verdiyimiz dəstəyin ümumi “yaşıl keçid”ə necə töhfə verdiyini göstərir.



**Polad istehsalı üzrə tədqiqatlar ətraf mühit üçün faydalı olmaqla yanaşı, həm də "Voestalpine" şirkətinin qlobal rəqabət qabiliyyətini artırmağın effektiv bir yoludur.**

# 2

# İNNOVASİYA

**Ən müasir texnologiyalar həm Avropanın gələcək məhsuldarlığı, həm də qlobal istiləşmə ilə mübarizə üçün vacibdir. Bizim investisiyalarımız yarımkeçirici çiplər, həyat elmləri və emissiyaları azaldan "xalis sıfır emissiyalı" innovasiyalar sahəsində Avropanın gücünü artırır. Biz, həmçinin, süni intellekt, kvant hesablama və təkmil istehsal kimi gələcək iqtisadi artım üçün vacib olan digər sahələrə də investisiya qoyuruq.**

**854 000**

**5G mobil abunəçiləri: 2024-cü ildə**

## POLAD SƏNAYESİNDƏ "YAŞIL HƏLL"

Dəmir filizini polada çevirmənin ənənəvi üsulu resurs tutumlu və çirkləndirici bir prosesdir. Avstriyanın "Voestalpine" polad şirkəti daha keyfiyyətli, universal və uzunömürlü polad hazırlamaq üçün Avropa İnvestisiya Bankından aldığı 300 milyon avroluq kreditdən istifadə edir. Şirkət, həmçinin, daha az enerji və xammal sərf edən, daha az çirklənmə ilə nəticələnən istehsal proseslərinə keçir.



**Danimarkanın Esbyerq limanına həm müdafiə, həm də “yaşıl enerji” sektorlarına xidmət etməsi üçün dəyişiklik edilir.**

# 3

# TƏHLÜKƏSİZLİK VƏ MÜDAFİƏ

Biz Avropanın təhlükəsizlik və müdafiə imkanlarını dəstəkləyərək qitədə sülhə töhfə veririk. Vətəndaşlarımızı qoruyan layihələr həyata keçirən Avropa biznesləri və innovatorları üçün maliyyəyə çıxışı asanlaşdırırıq. Kəşfiyyat və müşahidədən tutmuş kibertəhlükəsizlik həllərinə, infrastruktura və hərbi mobilliyə qədər müxtəlif sahələri əhatə edən maliyyələşdirmə həllərimiz Avropada təhlükəsizliyi, dayanıqlılığı və innovativliyi saxlamağa yönəlmiş ideyaları gücləndirmək üçün hazırlanıb.

**Hədəfimiz təhlükəsizlik və müdafiə sahəsinə**

**6**

**milyard avro**

**investisiya qoyuluşudur.**

## DANİMARKA LİMANININ YENİDƏN QURULMASI

Danimarkadakı 156 illik Esbyerq limanı hərbi gəmiləri qəbul etmək və dənizdə külək enerjisi sənayesinə xidmət göstərmək üçün yenidən qurulur. Avropa İnvestisiya Bankının 115 milyon avroluq kredit dəstəyi ilə liman yeni terminalın qurulmasına investisiya qoyur.



**İskiya adasındakı Kasamiççiola Terme icması torpaq sürüşməsi nəticəsində ciddi zərər görmüşdür. Biz adanın bərpasına və gələcəkdə baş verə biləcək fəlakətlərə qarşı daha dayanıqlı olmasına dəstək vermişik.**

# 4

# BİRLİK

**Biz birliyə, yəni Avropa İttifaqının müxtəlif regionlarında dayanıqlı inkişafı təşviq edən və iqtisadi-sosial inteqrasiyanı gücləndirən layihələrə investisiya edirik. Bu investisiyalar regional fərqləri azaldır, diqqətdən kənarda qalmış icmaları gücləndirir və onların inkişafına kömək edir.**

**38**
**milyard avro**

**birlik sahəsi üzrə maliyyələşdirmə: 2024-cü ildə**

## BƏRPA VƏ DAVAMLILIQ

2022-ci ilin noyabrında İtaliyanın Neapol körfəzində yerləşən İskiya adasında güclü yağışlar 23 nəfərin həyatına son qoyan, evləri uçuran və avtomobilləri özü ilə aparan torpaq sürüşməsinə səbəb olmuşdur. Adanın bərpası üçün Avropa İnvestisiya Bankı tərəfindən 1 milyard avro dəyərində maliyyə paketi ayrılmışdır.



**Kipr Texnologiya Universitetində tələbələr üçün 700-dən çox yaşayış otağının təmin olunması və akademik obyektlərin genişləndirilməsi layihəsi təhsilə və inklüzivliyə verdiyimiz dəstəyi nümayiş etdirir.**

5

# SOSİAL İNFRASTRUKTUR

**Yüksək keyfiyyətli yaşayış yeri ilə təminat, təhsil və səhiyyə xidmətləri Avropanın gələcəyi üçün vacibdir. Bizim maliyyə dəstəyimiz şəhərləri yaxşılaşdırır, iqtisadi baxımdan əlçatan yaşayış yerlərinin sayını artırır və sosial xidmətləri gücləndirir. Biz hər il Avropada 100 000-dən çox evin tikinti və ya təmirinə kömək edir, qitədəki məktəb və universitetlərdə sinif otaqlarını və digər infrastrukturu yaxşılaşdırırıq.**

**67,5 milyon**

**yaxşı bələdiyyə və regional infrastrukturla təmin olunan insanlar: 2024-cü ildə**

## TƏHSİLALANLAR ÜÇÜN YAŞAYIŞ YERLƏRİ

Hər il Kipr Texnologiya Universitetində yüzlərlə tələbə münasib qiymətə layiqli yaşayış yeri tapmaq üçün uzun müddət gərgin axtarış aparır. Bizim ayırdığımız 125 milyon avroluq kredit tələbələr üçün iqtisadi baxımdan əlçatan yaşayış yerlərinin tikilməsinə, sinif otaqlarının və digər universitet obyektlərinin yenilənməsinə kömək etmişdir.



**“Matr Foods” şirkətinin hazırladığı kimi ət əvəzedicilərinin keyfiyyəti son onillikdə xeyli artmışdır. Bu layihə ərzaq dəyər zəncirində dayanıqlılığı artırmaq məqsədilə gördüyümüz işlərin bir hissəsidir.**

6

# KƏND TƏSƏRRÜFATI

**Kənd təsərrüfatı ərzaq təhlükəsizliyində və iqlim dəyişikliyinə davamlılıqda mühüm rol oynayır. Biz balıqçılıq, meşə təsərrüfatı, ərzaq keyfiyyəti, kənd yerlərinin inkişafı və iqlimə uyğun istehsal kimi sahələrdə layihələrə maliyyə dəstəyi veririk. Kreditlərimiz və məsləhət xidmətlərimiz fermerləri daha yaxşı yaşayış vasitələri ilə təmin edir, ətraf mühiti qoruyur və kənd təsərrüfatının karbon izini azaldır.**

**3**
**milyard avro**
**gənc fermerlərə və gender bərabərliyinə yönəlmiş investisiya paketi**

**5**
**milyard avro**
**kənd təsərrüfatına və bioiqtisadiyyata dəstək (hər il)**

## İNNOVATİV DADLAR

Danimarkadakı “Matr Foods” şirkəti ətraf mühitə və istehlakçıların sağlamlığına zərər vermədən ətə bənzər dad və tekstura təqdim edən ət əvəzedicisi hazırlamışdır. Bu məhsul göbələk fermentasiyası prosesi vasitəsilə kotlet formasına salınan yerli, bitki əsaslı inqrediyentlərdən hazırlanır. Biz bu layihəyə 20 milyon avro məbləğində kreditlə dəstək veririk.



**“Rim Foam” və Mavritaniyadakı digər şirkətlərə göstərdiyimiz dəstək məşğulluğu artırır, qadınlara kömək edir və sahibkarlığı təşviq edir.**

7

# QLOBAL İNVESTİSİYA

**Avropa İttifaqından kənarda, biz Ukraynaya dəstəyi prioritetləşdiririk, Aralıq dənizi hövzəsi və Böyük Səhradan cənubdakı Afrika bölgəsi kimi regionlarda dayanıqlı inkişafı təşviq edirik. Dünyanın hər yerində iqlim fəaliyyətinə və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşdırılmasına töhfə veririk. Biz qlobal su sektorunda ən böyük kreditorlardan biriyik.**

**Təkmilləşdirilmiş səhiyyə xidmətləri və peyvəndlə təminatın artırılması:**

**100**

**milyondan çox insan üçün**

## QLOBAL GENDER BƏRABƏRLİYİ

Mavritaniyada Şeyx Məhəmməd Əlkaraçi atasından miras qalan penoplast istehsalı biznesinə rəhbərlik etməyə başlayanda qadın işçilər işə götürmək istəyirdi, lakin fabrikdə qadınlar üçün hətta ayrıca sanitar qovşağı belə yox idi. “Qadınlar üçün ayrıca sanitar qovşağı qurdum ki, burada işləyərkən özlərini daha rahat hiss edə bilsinlər,” deyə Əlkaraçi qeyd edir. O, qısa müddət sonra aparıcı vəzifələrə qadın işçilər cəlb etməyə başlayıb. Biz onun bu dəyişikliklərinə yerli bank vasitəsilə dəstək vermişik.



**Kapital bazarları birliyi şirkətlərə böyümək və “yaşıl keçid”ə investisiya yatırmaq üçün lazım olan maliyyəni əldə etməyə kömək edə bilər.**

8

# KAPİTAL BAZARLARI BİRLİYİ

Kapital bazarları birliyi Avropa İttifaqın daxilində investisiyaların və əmanətlərin sərbəst hərəkətini təmin etmək üçün nəzərdə tutulmuş plandır. Bu, fiziki şəxslərə, investorlara və şirkətlərə yaşayış və yerləşmə yerindən asılı olmayaraq fayda verə bilər. Vahid kapital bazarı maliyyə resurslarına çıxışın hazırda çətin olduğu Avropa İttifaqı ərazilərində yeni texnologiyalar, enerji səmərəliliyi və infrastruktur layihələri üçün daha əlverişli şərait yarada bilər.

Biz real kapital bazarları birliyinin təməl daşları ola biləcək maliyyə alətləri yaradırıq. Məsələn, rəqəmsal istiqraz əməliyyatlarımız Avropa maliyyə sistemində rəqəmsal inteqrasiyanı təşviq edir və əsasən bank kreditlərindən asılı olan kiçik şirkətlərin maliyyə resurslarına çıxışını yaxşılaşdırır.

**110**
**milyard avrodan artıq**

**həcmdə iqlim üzrə məlumatlılıq və dayanıqlılıq üzrə məlumatlılıq istiqrazları**

**Avropa İnvestisiya Bankının prioritetləri barədə daha ətraflı məlumatı buradan əldə edə bilərsiniz**

# QISA İCMAL
2025

Avropa İnvestisiya Bankı | Qrup

pdf: ISBN 978-92-861-5924-4
© Avropa İnvestisiya Bankı, 01/2025 AZ 2024-0348